**UOT 331**

***Ramil Teyyub oğlu ƏLİYEV***
***Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi***
***İqtisadiyyat İnstitutunun aparıcı elmi işçisi, dosent***
***art_7_7@mail.ru***
***Orcid:0000-0002-9128-4111***

***Sevda Faiq qızı MAHMUDOVA***
***Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi***
***İqtisadiyyat İnstitutunun böyük elmi işçisi***
***msf_7_7@mail.ru***
***Orcid:0000-0002-7318-2736***
**https://doi.org/10.30546/4.71.730.02.2026.1195**

# AZƏRBAYCANDA FƏRDİ SAHİBKARLIQ FƏALİYYƏTİNİN MÖVCUD VƏZİYYƏTİ VƏ YAXŞILAŞDIRILMASI İSTİQAMƏTLƏRİ

***Xülasə***

**Tədqiqatın məqsədi** Azərbaycanda fərdi sahibkarlıq fəaliyyətinin mövcud vəziyyətinin qiymətləndirilməsi və onun yaxşılaşdırılması üçün təkliflərin hazırlanmasıdır.

**Tədqiqatın metodologiyası -** sistemli yanaşma, ekspert metodu, kompleks təhlil metodları.

**Tədqiqatın nəticələri -** Azərbaycanda fərdi sahibkarlıq fəaliyyətinin inkişafının mövcud vəziyyəti araşdırılmış, onun yaxşılaşdırılması üçün müvafiq təklif və tövsiyələr verilmişdir.

**Tədqiqatın praktiki əhəmiyyəti** - tədqiqatın nəticələri və irəli sürülən təklif və tövsiyələr fərdi sahibkarlığın inkişafı üçün müvafiq tədbirlərin hazırlanmasında istifadə edilə və fərdi sahibkarlığın potensialından daha səmərəli istifadə etməyə imkan yarada bilər.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi** – müasir şəraitdə fərdi sahibkarlığın inkişafının zəruriliyi əsaslandırılır, onun yaxşılaşdırılmasının konkret yolları göstərilir.

***Açar sözlər: fərdi sahibkarlıq, inkişaf meylləri, mövcud vəziyyət, yaxşılaşdırmaq, inkişaf.***

## *Giriş*

Fərdi sahibkarlıq fiziki şəxslərin öz əmlakına əsaslanan və fiziki şəxslərin adından, onların riski və əmlak məsuliyyəti altında həyata keçirilən, xalis gəlir əldə etməyə yönəlmiş, Azərbaycan Respublikası vətəndaşlarının müstəqil, təşəbbüskar fəaliyyətidir. Fərdi sahibkarlıq bir fiziki şəxs tərəfindən ona mülkiyyət hüququ əsasında malik olduğu əmlakla, habelə əmlakdan istifadəyə və (və ya) sərəncam verməyə icazə verən digər hüquqi sənəd əsasında müstəqil şəkildə həyata keçirilir. Azərbaycanda fərdi sahibkarlığın formalaşması, fiziki şəxslərin hüquqi şəxs yaratmadan, dövlət qeydiyyatından keçərək biznes fəaliyyəti ilə məşğul olmasını nəzərdə tutur. Bu fəaliyyət formasının həyata keçirilməsi üçün sahibkar qanunvericilikdə müəyyən edilmiş qaydalara uyğun olaraq vergi orqanında vergi ödəyicisi kimi qeydiyyatdan keçməli və müvafiq sahibkarlıq fəaliyyətinə başlamalıdır. Fərdi sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi əmək qabiliyyətli əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsinə, ölkənin mövcud istehsal amillərindən səmərəli istifadə etməklə onun iqtisadi inkişafına əlverişli şərait yarada bilər. Ona gərə də, ölkədə fərdi sahibkarlığın inkişafına xüsusi diqqət yetirilməli və dəstək verilməlidir.

**Fərdi sahibkarlıq fəaliyyətinin xüsusiyyətləri**

Fərdi sahibkar sahibkarlıq fəaliyyəti ilə bağlı əqdlər apararkən özünün fərdi sahibkar kimi çıxış etdiyini göstərməlidir. Belə bir göstərişin olmaması fərdi sahibkarı öz öhdəliklərinə görə məsuliyyət daşımaq riskindən və məsuliyyətindən azad etmir.

N.A.Derevyankonun fikrincə, fərdi sahibkarlığın hüquqi statusunun formalaşmasının xüsusiyyətləri kimi aşağıdakıları qeyd etmək olar:

- kommersiya təşkilatlarından fərqli olaraq, fərdi sahibkarlardan başlanğıc kapital tələb olunmur;
- mühasibat uçotu vergi məqsədləri üçün məcburi deyildir;
- fərdi sahibkarlar öz fəaliyyətlərini həyata keçirərkən digər hüquqi şəxslərdə olduğu kimi balansında ayrıca aktivlər saxlamadan öz öhdəlikləri üzrə bütün aktivləri ilə cavabdehdirlər;
- fərdi sahibkarlarla bağlı bütün mübahisələrə, hətta hüquqi şəxs olmadıqları halda, arbitraj məhkəməsində baxılır [5, səh. 159].

Yuliya Usaçeva hesab edir ki, fərdi sahibkarlıq statusu sahibkara məhsul istehsal etmək və satmaq, işçiləri işə götürmək hüququ verir, lakin hüquqi şəxslərdən daha çox məhdudiyyətlərlə üzləşir. Fərdi sahibkarların aşağıdakı hüquqları vardır:
- fəaliyyətləri ilə əlaqədar əməliyyatlar aparmaq və müqavilələr bağlamaq;
- çoxsaylı fəaliyyətlər həyata keçirmək;
- vergiləri sadələşdirilmiş sxem üzrə ödəmək;
- əmlakından şəxsi məqsədlər üçün istifadə etmək;
- müəyyən hallarda fiziki şəxs kimi çıxış etmək, məsələn, avtomobildən şəxsi ehtiyacları üçün istifadə etmək, lakin ona görə əlavə vergi ödəməmək;
- öz möhürlərini düzəltmək və bank hesabı açmaq [6].

Fərdi sahibkar öz fəaliyyətini həyata keçirərkən şəxsi iş blanklarından, möhürlərdən istifadə etmək hüququna malikdir, mətnlərində şəxsin fərdi sahibkar olması aydın şəkildə göstərilməlidir [7].

Sahibkar olmaq xüsusi bacarıq tələb edir. Bəzi qabiliyyətlər təbii olaraq mövcud olsa da, digərləri diqqətli təcrübə vasitəsilə öyrənilə və ya inkişaf etdirilə bilər. Sahibkarlara lazım olan keyfiyyətləri başa düşmək ona daha yaxşı biznes lideri olmaq üçün böyüməyə kömək edə bilər. Sahibkarlıq xüsusiyyətləri fərdlərə yeniliklər etməklə, hərəkətə keçməklə və çətinlikləri dəf etməklə biznesə başlamağa və idarə etməyə kömək edir.

Sahibkarlıq xüsusiyyətləri sahibkarlara məqsədlərinə çatmaqda kömək edən keyfiyyətlərdir.

Uğurlu bir sahibkar olmaq üçün inkişaf etdirilməli olan xüsusiyyətlər bunlardır: yaradıcılıq, ehtiras, motivasiya, məhsul və ya xidmət bilikləri, şəbəkə qurma bacarığı, özünə inam, optimizm, görmə, məqsədli düşüncə tərzi, risk götürmək bacarığı, inandırıcılıq, qərarvermə bacarığı, dözümlülük, pulun idarə edilməsi bacarığı, uyğunlaşma [8].

Yalnız yuxarıda qeyd edilən xüsusiyyətlərə malik olan fərdi sahibkarlıq sturukturu fəaliyyətini səmərəli həyata keçirə bilər.

**Azərbaycanda fərdi sahibkarlığın inkişaf dinamikası**

Müstəqillik əldə etdikdən sonra bazar iqtisadiyyatı yolu seçən Azərbaycanda sahibkalıq fəaliyyətinin, xüsusilə də fərdi, kiçik və orta sahibkarlığın formalaşması və inkişafı, onlara dövlət dəstəyinin göstərilməsi üçün çoxsaylı qanunlar, proqramlar, Prezident Fərmanları qəbul edilmişdir. Onların sırasında “Sahibkarlıq fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununu (15 dekabr 1992-ci il), “Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafının Dövlət Proqramı”nı (1997-2000-ci illər), “Kiçik sahibkarlığa dövlət köməyi haqqında” Azərbaycan Respublikasının Qanununu (4 iyun 1999-cu il), “Azərbaycan Respublikası Sahibkarlığa Kömək Milli Fondu”nun təsis edilməsini (17 avqust 2002-ci il), Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) yaradılmasını (28 dekabr 2017-ci il), “Azərbaycan Respublikasının Sahibkarlığın İnkişafı Fondu” publik hüquqi şəxsin təsis edilməsini (01 avqust 2018-ci il), “Mikro, kiçik və orta sahibkarlığın inkişafı haqqında” Azərbaycan Respublikasının Qanununu (2 dekabr 2022-ci il) qeyd etmək olar. Fərdi sahibkarlığın formalaşması və inkişafına dəstək sayəsində Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA-nın) xüsusi rolunu qeyd etmək lazımdır.

Fərdi sahibkarlığın dəstəklənməsinə yönəldilmiş tədbirlər sayəsində bu fəaliyyətlə məşğul olanların sayı son illərdə artmağa doğru meyl etmişdir. 2015-2024-cü illərdə Azərbaycanda fərdi sahibkarlıq fəaliyyəti ilə məşğul olanların sayı cədvəl 1-də göstərilmişdir.

Araşdırmalar göstərir ki, son on il ərzində Azərbaycanda fərdi sahibkarlıq fəaliyyəti (FSF) ilə məşğul olanların sayı ilbəil artmağa doğru meyl etmişdir. Belə ki, 2015-ci ildə bu sahədə məşğul

olanların sayı 576906 nəfər təşkil edirdisə, sonrakı illərdə onların sayında artım aşağıdakı kimi olmuşdur: 2020-ci ildə 2015-ci illə müqayisədə 84,2% çox, 2021-ci ildə əvvəlki illə müqayisədə 10,0% çox, 2022- ci ildə əvvəlki illə müqayisədə 4,6% çox, 2023-cü ildə 2022-ci illə müqayisədə 8,1% çox və 2024-cü ildə əvvəlki illə müqayisədə 5,1% çox.

BeləlİklƏ, 2024-cü ildə Azərbaycanda FSF ilə məşğul olanların sayı 2015 -ci illə müqayisədə 2,4 dəfə artmışdır.

Oxşar meyl kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsində də müşahidə edilir. Belə ki, bu sahədə fərdi sahibkarlıq fəaliyyəti ilə məşğul olanların sayının ilbəil artması nəticəsində 2024-cü ildə onların sayı (515244 nəfər) 2015-ci illə müqayisədə (102942 nəfər) beş dəfədən çox artmışdır.

Nəzərdən keçirilən illər ərzində mədənçıxarma sənayesində FSF ilə məşğul olanların sayı ilbəil artmağa doğru meyl etmiş və nəticədə 2024-cü ildə onların sayı (1279 nəfər) 2015-ci illə müayisədə (676 nəfər) 89,2% artmışdır.

2015-2024-cü illər ərzində emal sənayesində nəzərdən keçirilən fəaliyyətlə məşğul olanların sayının artımı aşağıdakı kimi olmuşdur:

- 2020-ci ildə 2015-ci illə müqayisədə 52,1% çox;
- 2021-ci ildə əvvəlki illə müqayisədə 8,5% çox;
- 2022- ci ildə əvvəlki illə müqayisədə 3,1% çox;
- 2023-cü ildə 2022-ci illə müqayisədə 5,7 % çox;
- 2024-cü ildə əvvəlki illə müqayisədə 5,8% çox.

Nəticədə, 2024-cü ildə emal sənayesi sahələrində FSF ilə məşğul olanların sayı 2015-ci illə müqayisədə 90,2% artmışdır.

Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sahəsində fərdi sahibkarlıq fəaliyyəti ilə məşğul olanların sayı, başqa sahələrə nisbətən, xeyli azdır və illər üzrə sayında da cüzi artımlar baş vermişdir. Belə ki, 2015-ci ildə bu sahədə 58 nəfər məşğul olmuş və son on ildə onlarına sayı cəmi 35 nəfər artaraq 2024-cü ildə 93 nəfərə çatmışdır.

2015-2024-cü illər ərzində su təchizatı, tullantıların təmizlənməsi və emalı sahəsində nəzərdən keçirilən fəaliyyət ilə məşğul olanların sayında ilbəil aşağıda qeyd edilən nisbətlərdə artım baş vemişdir:

- 2020-ci ildə 2015-ci illə müqayisədə 3,3 dəfə çox;
- 2021-ci ildə əvvəlki illə müqayisədə 26,5% çox;
- 2022- ci ildə əvvəlki illə müqayisədə 17,5% çox;
- 2023-cü ildə 2022-ci illə müqayisədə 4,6% çox;
- 2024-cü ildə əvvəlki illə müqayisədə 3,3% çox.

Göründüyü kimi, qeyd edilən sahədə FSF ilə məşğul olanların sayının nisbət artımında ilbəil azalma baş vermişdir. Buna rəğmən, 2024-cü ildə bu sahədə nəzərdən keçirilən fəaliyyətlə məşğul olanların sayı 2015 -ci illə müqayisədə 5,3 dəfə artmışdır.

Son on il ərzində tikinti sahəsində fərdi sahibkarlıq fəaliyyəti ilə məşğul olanların sayı əhəmiyyətli dərəcədə artmışdır. Belə ki, 2015-ci ildə tikinti sahəsində bu fəaliyyət növü ilə məşğul olanların sayı 4989 nəfər təşkil edirdisə, onların sayı 2024-cü ildə 5,7 dəfə artaraq 29280 nəfərə çatmışdır.

Azərbaycanda ticarət, nəqliyyat vasitələrinin təmiri sahəsində FSF ilə məşğul olanların sayı digər sahələrlə müqayisədə daha çoxdur və illər üzrə artmağa doğru meyl edir. Təhlil göstərir ki, qeyd edilən göstəricinin nəzərdən keçirilən illər üzrə artım meyli aşağıdakı kimi olmuşdur:

- 2020-ci ildə 2015-ci illə müqayisədə 13,7% çox;
- 2021-ci ildə əvvəlki illə müqayisədə 5,9% çox;
- 2022- ci ildə əvvəlki illə müqayisədə 3,4% çox;
- 2023-cü ildə 2022-ci illə müqayisədə 3,8% çox;
- 2024-cü ildə əvvəlki illə müqayisədə 2,9% çox.

Nəticədə, 2024-cü ildə ticarət, nəqliyyat vasitələrinin təmiri sahəsində FSF ilə məşğul olanların

sayı 2015-ci illə müqayisədə 30,5% artmışdır.

Nəzərdən keçirilən illər ərzində nəqliyyat və anbar təsərrüfatı sahəsində fərdi sahibkarlıq fəaliyyəti ilə məşğul olanların sayı ilbəil artmağa doğru meyl etmiş və artım templəri aşağıdakı kimi olmuşdur: 2020-ci ildə 2015-ci illə müqayisədə 60,5% çox, 2021-ci ildə əvvəlki illə müqayisədə 12,0% çox, 2022- ci ildə əvvəlki illə müqayisədə 9,2% çox, 2023-cü ildə 2022-ci illə müqayisədə 7,1% çox, 2024-cü ildə əvvəlki illə müqayisədə 7,9% çox.

Göründüyü kimi, qeyd edilən sahədə FSF ilə məşğul olanların sayı ilbəil artsa da, artım tempində əsasən azalmalar müşahidə edilir. Ancaq, buna baxmayaraq, 2024 - cü ildə nəqliyyat və anbar təsərrüfatı sahəsində fərdi sahibkarlıq fəaliyyəti ilə məşğul olanların sayı 2015-ci illə müqayisədə 2,2 dəfə artmışdır.

**Cədvəl 1.**

**2015-2024-cü illərdə Azərbaycanda fərdi sahibkarlıq fəaliyyəti ilə məşğul olanların sayı (nəfər)**

| | 2015 | 2020 | 2021 | 2022 | 2023 | 2024 |
|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
| Cəmi | 576906 | 1062537 | 1168921 | 1222859 | 1321835 | 1389792 |
| O cümlədən: | | | | | | |
| Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 102942 | 341982 | 396672 | 430222 | 486503 | 515244 |
| Mədənçıxarma sənayesi | 676 | 1036 | 1091 | 1143 | 1229 | 1279 |
| Emal sənayesi | 15092 | 22957 | 24898 | 25663 | 27123 | 28700 |
| Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 58 | 73 | 86 | 89 | 94 | 93 |
| Su təchizatı, tullantıların təmizlənməsi və emalı | 224 | 737 | 932 | 1095 | 1145 | 1183 |
| Tikinti | 4989 | 21306 | 23615 | 24415 | 27523 | 29280 |
| Ticarət; nəqliyyat vasitələrinin təmiri | 201151 | 228742 | 242206 | 245868 | 255321 | 262598 |
| Nəqliyyat və anbar təsərrüfatı | 72808 | 116831 | 130845 | 135862 | 145486 | 156994 |
| Turistlərin yerləşdirilməsi və ictimai iaşə | 34432 | 42971 | 45383 | 46423 | 48976 | 51640 |
| İnformasiya və rabitə | 6060 | 10675 | 11813 | 12898 | 13919 | 14474 |
| Maliyyə və sığorta fəaliyyəti | 1462 | 4226 | 3937 | 3585 | 3651 | 3820 |
| Daşınmaz əmlakla əlaqədar əməliyyatlar | 10998 | 14759 | 15581 | 15702 | 16650 | 17468 |
| Peşə, elmi və texniki fəaliyyət | 12210 | 23490 | 26577 | 28286 | 30516 | 31950 |
| İnzibati və yardımçı xidmətlərin göstərilməsi | 2557 | 21415 | 23217 | 25039 | 26667 | 27466 |
| Təhsil | 3762 | 10473 | 12327 | 14413 | 16141 | 17988 |
| Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi | 2446 | 6898 | 7469 | 7801 | 8109 | 8115 |
| İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət | 7705 | 13816 | 14592 | 15176 | 16413 | 17501 |
| Ev təsərrüfatlarının fəaliyyəti; fərdi istehlak üçün ev təsərrüfatlarının istehsal etdiyi mal və xidmətlərə dair fəaliyyət | 17302 | 68045 | 71114 | 72815 | 74368 | 75597 |
| Digər sahələrdə xidmətlərin göstərilməsi | 80413 | 112105 | 116566 | 115364 | 122001 | 12840 |

*Mənbə: [2, səh. 591-592; 3, səh.595]*

Son illər ölkəmizə gələn xarici turistlərin sayının artması turistlərin yerləşdirilməsi və ictimai iaşə sahəsində məşğul olan fərdi sahibkarların sayının da ilbəil artmasna səbəb olmuşdur. Hesablamalar göstərir ki, qeyd edilən sahədə FSF ilə məşğul olanların sayının artım tempi aşağıdakı kimi olmuşdur:

- 2020-ci ildə 2015-ci illə müqayisədə 24,8% çox;
- 2021-ci ildə əvvəlki illə müqayisədə 5,6% çox;
- 2022- ci ildə əvvəlki illə müqayisədə 2,3% çox;
- 2023-cü ildə 2022-ci illə müqayisədə 5,5% çox;
- 2024-cü ildə əvvəlki illə müqayisədə 5,4% çox.

Beləliklə, 2024-cü ildə turistlərin yerləşdirilməsi və ictimai iaşə sahəsində FSF ilə məşğul olanların sayı 2015-ci illə müqayisədə 50,0% çox olmuşdur.

2015-2024-cü illər ərzində Azərbaycanda informasiya və rabitə sahəsində fərdi sahibkarlıq fəaliyyəti ilə məşğul olanların sayında illər üzrə nəzərəçarpacaq dərəcədə artım baş vermişdir. Belə ki, bu sahədə FSF ilə məşğul olanların sayı:

- 2020-ci ildə 2015-ci illə müqayisədə 76,2% çox;
- 2021-ci ildə əvvəlki illə müqayisədə 10,7% çox;
- 2022- ci ildə əvvəlki illə müqayisədə 9,2% çox;
- 2023-cü ildə 2022-ci illə müqayisədə 7,9% çox;
- 2024-cü ildə əvvəlki illə müqayisədə 4,0% çox olmuşdur.

Nəticədə, 2024-cü ildə informasiya və rabitə sahəsində FSF ilə məşğul olanların sayı 2015-ci illə müqayisədə 2,4 dəfə artmışdır.

Araşdırmalar göstərir ki, 2015-2024-cü illərdə maliyyə və sığorta sahəsində FSF ilə məşğul olanların sayında illər üzrə artıb-azalmalar baş vermiş və bu özünü aşağıdakı kimi büruzə vermişdir:

- 2020-ci ildə FSF ilə məşğul olanların sayı 2015-ci illə müqayisədə 2,9 dəfə artmış;
- 2021-ci ildə isə bu göstəricinin səviyyəsi əvvəlki illə müqayisədə 6,8% azalmış;
- 2022- ci ildə əvvəlki illə müqayisədə bu azalma davam etmiş və 8,9% təşkil etmiş;
- 2023-cü ildə 2022-ci illə müqayisədə 1,8 % və 2024-cü ildə əvvəlki illə müqayisədə 4,6 % artım baş vermişdir.

Beləliklə, 2024-cü ildə maliyyə və sığorta sahəsində FSF ilə məşğul olanların sayı 2015-ci illə müqayisədə 2,6 dəfə artmışdır.

Daşınmaz əmlakla əlaqədar əməliyyatlar sahəsində fərdi sahibkarlıq fəaliyyəti ilə məşğul olanların sayında illər üzrə artım müşahidə edilir. Belə ki, bu sahədə FSF ilə məşğul olanların sayında illər üzrə artım nisbəti aşağıdakı kimi olmuşdur:

- 2020-ci ildə 2015-ci illə müqayisədə 34,2% çox;
- 2021-ci ildə əvvəlki illə müqayisədə 5,6% çox;
- 2022- ci ildə əvvəlki illə müqayisədə 0,8% çox;
- 2023-cü ildə 2022-ci illə müqayisədə 6,0% çox;
- 2024-cü ildə əvvəlki illə müqayisədə 4,9% çox.

Nəticədə, 2024-cü ildə daşınmaz əmlakla əlaqədar əməliyyatlar sahəsində FSF ilə məşğul olanların sayı 2015-ci illə müqayisədə 58,8% artmışdır.

Təqdirəlayiq haldır ki, son illər peşə, elmi və texniki fəaliyyət sahəsində FSF ilə məşğul olanların sayı ilbəil artmaqda davam etmiş və bu artımlar özünü aşağıdakı nisbət artımlarında büruzə vermişdir:

- 2020-ci ildə 2015-ci illə müqayisədə 92,4% çox;
- 2021-ci ildə əvvəlki illə müqayisədə 13,1% çox;
- 2022- ci ildə əvvəlki illə müqayisədə 6,4% çox;
- 2023-cü ildə 2022-ci illə müqayisədə 7,9% çox;
- 2024-cü ildə əvvəlki illə müqayisədə 4,7% çox olmuşdur.

İlbəil baş verən artımlar sayəsində 2024-cü ildə peşə, elmi və texniki fəaliyyət sahəsində

FSF ilə məşğul olanların sayı, 2015-ci illə müqayisədə 2,6 dəfə çox olmuşdur.

Cədvəl 1-dən göründüyü kimi 2020-ci ildə inzibati və yardımçı xidmətlərin göstərilməsi sahəsində FSF ilə məşğul olanların sayı (21415 nəfər) 2015-ci illə müqayisədə (2557 nəfər) 8,4 dəfə artmışdır. Sonrakı illərdə qeyd edilən sahədə FSF ilə məşğul olanların sayı ilbəil artsa da, artım nisbətləri xeyli aşağı olmuşdur. Belə ki, bu göstəricinin səviyyəsi:

- 2021-ci ildə 2020-ci illə müqayisədə 8,4% çox;
- 2022- ci ildə əvvəlki illə müqayisədə 7,8% çox;
- 2023-cü ildə 2022-ci illə müqayisədə 6,5% çox;
- 2024-cü ildə əvvəlki illə müqayisədə 3,0% çox olmuşdur.

Göründüyü kimi, inzibati və yardımçı xidmətlərin göstərilməsi sahəsində fərdi sahibkarlıq fəaliyyəti ilə məşğul olanların sayının artım tempi ilbəil azalmışdır.

Nəzərdən keçirilən illər ərzində təhsil sahəsində FSF ilə məşğul olanların sayında ilbəil artım baş vermiş və illər üzrə artım tempi aşağıdakı kimi olmuşdur:

- 2020-ci ildə 2015-ci illə müqayisədə 2,8 dəfə çox;
- 2021-ci ildə əvvəlki illə müqayisədə 17,7% çox;
- 2022- ci ildə əvvəlki illə müqayisədə 11,5% çox;
- 2023-cü ildə 2022-ci illə müqayisədə 12,0% çox;
- 2024-cü ildə əvvəlki illə müqayisədə 11,4 % çox.

Nəticədə, 2024-cü ildə təhsil sahəsində FSF ilə məşğul olanların sayı 2015-ci illə müqayisədə 4,8 dəfə artmışdır.

Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi sahəsində fərdi sahibkarlıq fəaliyyəti ilə məşğul olanların sayında, aşağı templə olsa da, artım müşahidə edilir. Belə ki, bu sahədə FSF ilə məşğul olanların sayı 2024-cü ildə (8115 nəfər) 2015-ci illə müqayisədə (2446 nəfər) 3,3 dəfə artsa da, sonrakı illərdə artım tempi aşağıdakı kimi olmuşdur:

- 2021-ci ildə əvvəlki illə müqayisədə 8,3% çox;
- 2022- ci ildə əvvəlki illə müqayisədə 4,4% çox;
- 2023-cü ildə 2022-ci illə müqayisədə 3,9% çox;
- 2024-cü ildə əvvəlki illə müqayisədə 0,7% çox.

İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət göstərən fərdi sahibkarların sayı son illər artmağa doğru meyl etmişdir. Belə ki, bu sahədə FSF ilə məşğul olanları sayı:

- 2020-ci ildə 2015-ci illə müqayisədə 79,3% çox;
- 2021-ci ildə əvvəlki illə müqayisədə 5,6% çox;
- 2022- ci ildə əvvəlki illə müqayisədə 4,0% çox;
- 2023-cü ildə 2022-ci illə müqayisədə 8,2% çox;
- 2024-cü ildə əvvəlki illə müqayisədə 6,6% çox olmuşdur.

Nəticədə, 2024-cü ildə istirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət göstərən fərdi sahibkarların sayı 2015-ci illə müqayisədə 2,3 dəfə artmışdır.

Ev təsərrüfatlarının fəaliyyəti - fərdi istehlak üçün ev təsərrüfatlarının istehsal etdiyi mal və xidmətlərə dair fəaliyyət sahəsində FSF ilə məşğul olanların sayı son illər ilbəil artmış və artım nisbəti aşağıdakı kimi olmuşdur:

- 2020-ci ildə 2015-ci illə müqayisədə 3,9 dəfə çox;
- 2021-ci ildə əvvəlki illə müqayisədə 4,5% çox;
- 2022- ci ildə əvvəlki illə müqayisədə 2,4% çox;
- 2023-cü ildə 2022-ci illə müqayisədə 2,1% çox;
- 2024-cü ildə əvvəlki illə müqayisədə 1,7 % çox.

Göründüyü kimi, son illər qeyd edilən sahədə FSF ilə məşğul olanların sayının artım tempi azalmağa doğru meyl etmişdir.

Nəzərdən keçirilən illər ərzində digər sahələrdə fərdi sahibkarlıq fəaliyyəti ilə məşğul olanların sayında da ilbəil artım baş vermiş və nəticədə 2024-cü ildə onların sayı (128402 nəfər) 2015-ci illə müqayisədə (80413 nəfər) 59,7 % artmışdır.

Araşdırmalar göstərir ki, fərdi sahibkarlıq fəaliyyətinin genişləndirilməsi və yaxşılaşdırılması üçün Azərbaycanda geniş imkanlar və potensial vardır və onlardan səmərəli istifadə edilməsi üçün müvafiq tədbirlərin həyata keçilməsi məqsədəuyğun olardı.

**Azərbaycanda fərdi sahibkarlıq fəaliyyətinin təkmilləşdirilməsi istiqamətləri: təklif və tövsiyələr**

Azərbaycanda fərdi sahibkarlıq fəaliyyətinin həyata keçirilməsinin iqtisadi və sosial rolu onunla müəyyən edilir ki, iqtisadi fəal əhalinin xeyli hissəsi iqtisadiyyatın bu sahəsində fəaliyyət göstərir və ümumi (o cümlədən regional) məhsulun müəyyən hissəsi bu strukturlarda istehsal olunur. Fərdi sahibkarlıq mühüm sosial funksiyaları da yerinə yetirir - əmək qabiliyyətli əhalinin məşğulluğunun əhatə dairəsini genişləndirir, əlavə gəlir mənbələrini təmin edir, əhalinin müəyyən təbəqələrinin sahibkarlıq potensialını reallaşdırır.

Araşdırmalar göstərir ki, ölkə iqtisadiyyatının inkişafında fərdi sahibkarların rolu getdikcə artmaqdadır. Ancaq yuxarıda qeyd edildiyi kimi, ölkə iqtisadiyyatının müxtəlif sahələrində məşğul olan fərdi sahibkarların sayı son 10 il ərzində artmağa doğru meyl etsə də, faktiki sayları çox deyildir və bu, bir sıra amillərlə bağlıdır. Fikrimizcə, Azərbaycan hökuməti aşağıda təklif edilən istiqamətlərdə müvafiq tədbirlər həyata keçirməklə ölkə iqtisadiyyatının müxtəlif sahələrində fərdi sahibkarlığın inkişafına əhəmiyyətli töhfə verə bilər:

- məlumdur ki, fərdi sahibkarların üzləşdiyi ən böyük problemlərdən biri maliyyə mənbələrinə çıxışdır. Bir çox sahibkarın böyük ideyaları var, lakin onları reallığa çevirmək üçün maliyyə resursları yoxdur. Hökumət qrantlar, kreditlər və digər maliyyə stimulları vasitəsilə maliyyə əldə etməkdə fərdi sahibkarlara kömək edə bilər. Məsələn, hökumət fərdi sahibkarlar üçün müxtəlif kredit proqramları, o cümlədən uyğun bizneslərə bir milyon manata qədər maliyyə vəsaiti verən kredit proqramı təklif edə bilər. Bundan əlavə, hökumət yeni başlayanlara maliyyə verən investorlar üçün vergi güzəştləri də verə bilər;
- fərdi sahibkarlar çox vaxt mürəkkəb qaydaları və sənədləşmə işlərini idarə etməkdə çətinlik çəkirlər. Hökumət biznesə başlamaq və idarə etmək prosesini sadələşdirməklə bu yükü azalda bilərlər;
- fərdi sahibkarlar uğur qazanmaq üçün biznesin idarə edilməsindən tutmuş məhsulun inkişafına qədər geniş bacarıqlara ehtiyac duyurlar. Hökumət fərdi sahibkarlara lazım olan bilikləri əldə etmələrinə kömək etmək üçün təhsil və təlim proqramlarına sərmayə qoya bilər;
- sahibkarlıq fəaliyyəti innovasiya ilə sıx bağlıdır və hökumət tədqiqat və inkişafa sərmayə qoymaqla və yeni texnologiyalara sərmayə qoyan fərdi sahibkarlara vergi güzəştləri verməklə innovasiyaları təşviq edə bilər;
- fərdi sahibkarlığın inkişafı üçün dəstəkləyici hüquqi baza vacibdir. Hökumət əqli mülkiyyət hüquqlarını qorumaq və müqavilələrin icrasını təmin etməklə fərdi sahibkarlar üçün əlverişli hüquqi mühit yarada bilər. Fikrimizcə, fərdi sahibkarlıq haqqında xüsusi qanunun qəbul edilməsinə aşkar ehtiyac vardır. Bu qanun müxtəlif fəaliyyət növləri və gəlir məbləğləri üzrə fərdi sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün müxtəlif hüquqi rejimləri nəzərdə tutmalıdır;
- hökumət fərdi sahibkarlığa dəyər verən və dəstəkləyən bir mədəniyyət yaratmaqla onu təşviq edə bilər. Bu, ictimai maarifləndirmə kampaniyaları və fərdi sahibkarların töhfələrini tanımaq və qeyd etməklə həyata keçirilə bilər;
- fərdi sahibkarlar uğur qazanmaq üçün tez-tez digər sahibkarlar, investorlar və ekspertlərlə şəbəkə qurmalı və əməkdaşlıq etməlidirlər. Hökumət fərdi sahibkarlar üçün görüşmək və fikir mübadiləsi aparmaq üçün imkanlar yaratmaqla şəbəkələşməni və əməkdaşlığı inkişaf etdirə bilər;
- hazırda müxtəlif sənaye sahələrində fərdi sahibkarlıq fəaliyyətinin tənzimlənməsində ümumi tələblərə riayət etməklə onların hər bir növünə münasibətdə ümumi yanaşma və fərqləri göstərmək vacibdir. Eyni zamanda, hökumət tərəfindən qəbul edilən ümumi normativ sənədlərdə fərdi sahibkarlıq subyektlərinin fəaliyyətinin tənzimlənməsi üçün vahid prinsiplərin olması çox vacibdir. Bu, fərdi sahibkarlığın hüquq və vəzifələrini müəyyən edərkən çox vacibdir, lakin digər tərəfdən, sənayenin müxtəlif sahələri üçün əhəmiyyətli dərəcədə fərqlənə bilər. Fərdi sahibkarlığın müxtəlif

növlərinə dəstək üsullarını əsaslandırarkən bu cür fərqləri nəzərə almaq xüsusilə vacibdir. Onlar ölkə iqtisadiyyatı qarşısında qoyulan problemlərin həlli üçün praktik əhəmiyyətindən və fəaliyyətlərinin obyektiv nəticələrindən asılı olaraq fərqləndirilməlidir. Bu məsələlər fərdi sahibkarlığın inkişafının idarə edilməsi problemlərinin həlli və müxtəlif səviyyələrdə dövlət orqanlarının bu prosesə təsirinin gücləndirilməsi üçün mühüm əhəmiyyət kəsb edir;

- fərdi sahibkarlığın inkişafına dəstək istiqamətlərindən biri də bələdiyyələrin fəaliyyətinin aktivləşdirilməsi olmalıdır. Onlar əhaliyə xidmət üzrə ixtisaslaşan fərdi sahibkarların - məişət xidmətlərinin, müxtəlif növ təmir işlərinin (ayaqqabı və geyim təmirindən tutmuş mənzillərin təmirinə, abadlıq - landşaft dizayn işlərinə və s.) inkişafına mühüm töhfə verə bilərlər. Məhz bələdiyyə orqanları əhali ilə fəal ünsiyyətdə olan və ictimai təşkilatları cəlb etməklə rayonun infrastrukturunun yaxşılaşdırılmasını, rahat yaşayış şəraitinin yaradılmasını təmin edə bilər: piyada məsafədə ticarət, mədəni asudə vaxtın təşkili və sağlam həyat tərzi üçün şəraitin (idman təşkilatları, müxtəlif yaşda olan sakinlər üçün - məktəbəqədər yaşlı uşaqlar üçün xüsusi təhsil müəssisələri) təmin edilməsi. Belə bir yanaşmanın həyata keçirilməsi üçün təbii ki, mühüm təşkilati işlərin aparılması və müxtəlif sənaye sahələrində fəaliyyət göstərən fərdi sahibkarların dəstəklənməsi üçün müvafiq üsulların seçilməsi zəruridir. İnkişaf etmiş xarici ölkələrdə bələdiyyə idarəetmə orqanlarının təcrübəsinin təhlili göstərir ki, fərdi sahibkarlara aşağıdakı dəstək üsulları təklif edilə bilər: binaların güzəştli icarəsi, sifarişlərin formalaşdırılması və tənzimlənməsi, onların qeydiyyatdan keçmiş fərdi sahibkarların müraciətlərinə əsasən bölüşdürülməsi və s.;

- fikrimizcə, qanunvericiliyə dövlət orqanlarına fərdi sahibkarın müəyyən müddət ərzində (məsələn, bir və iki il) sahibkarlıq fəaliyyətini həyata keçirməməsinə görə dövlət qeydiyyatının ləğvi məsələsi ilə çıxış etməyə imkan verən dəyişikliklərin və əlavələrin edilməsi məqsədəuyğun olardı;

- hesab edirik ki, “Mikro, kiçik və orta sahibkarlığın inkişafı haqqında” Azərbaycan Respublikasının Qanununa fərdi sahibkarlıq fəaliyyətinin də əlavə edilməsi məqsədəuyğun olardı. Bu, fərdi sahibkarlıq fəaliyyətinin daha da genişlənməsinə, onun tənzimləmə mühitinin keyfiyyətinin yaxşılaşdırılmasına, iqtisadiyyata töhfəsinin artırılmasına və onun inkişaf göstəricilərinin lazımi şəkildə nəzərə alınmasına töhfə verə bilər;

- fikrimizcə, müxtəlif sənaye sahələrində, xüsusilə, qida, poliqrafiya məhsulları, rezin və plastik kütlə məmulatları, mebellərin istehsalı sahələrində fəaliyyət göstərən fərdi sahibkarların səmərəli fəaliyyətinin həyata keçirilməsi üçün onların məhsullarına dövlət sifarişlərinin verilməsi məqsədəuyğun olardı;

- emal sənayesinin bir sıra sahələrində, xüsusilə də, qida və tütün məhsullarının, ağacdan məmulatların, mebellərin, xırda sənətkarlıq məhsullarının istehsalı üçün regionlarda mövcud olan potensiallardan daha səmərəli istifadə etmək məqsədi ilə bu sahələrdə fəaliyyət göstərən fərdi sahibkarlıq strukturlarına əlverişli şərait yaradılmalı, onların fəaliyyətinə əsassız, kənar müdaxilələr tamamilə aradan qaldırılmalıdır. Qeyd edilən sahələrdə yeni fəaliyyətə başlayan fərdi sahibkarlara güzəştli şərtlərlə uzunmüddətli kreditlərin verilməsi də məqsədəuyğun olardı.

Hesab edirik ki, ölkəmizdə fərdi sahibkarlığın inkişafı, dəstəklənməsi təkcə hökumətin vəzifəsi deyildir. Müvafiq nazirliklər, xüsusilə İqtisadiyyat Nazirliyi fərdi sahibkarlığın inkişafına önəmli dəstək verə bilər. Məsələn, İqtisadiyyat Nazirliyi yaxın perspektiv üçün Azərbaycan iqtisadiyyatının prioritet inkişaf istiqamətlərini, sahələrini müəyyənləşdirməklə və bu sahələrə fərdi biznesin cəlb edilməsi üçün müvafiq stimullaşdırıcı tədbirlərin (vergi güzəştlərinin müəyyən edilməsi, uzun müddətli güzəştli kreditlərin verilməsi və s.) tətbiq edilməsi üçün hökumətə müraciət edə bilər.

Fərdi sahibkarlığın inkişafı müvafiq maliiyə təminatı olmadan, maliyyə mənbələrinə asan çıxış olmadan qeyri-mümkündür. Bu strukturların maliyyə mənbələrinə çıxışının əlçatan olması xeyli dərəcədə bank sektorlarının tətbiq etdiyi kredit faizlərinin dərəcəsindən asılıdır. Fərdi sahibkarların bank kreditlərinə əlçatanlığının təmin edilməsi məqsədi ilə bank faizlərinin dərəcələrinin optimal həddə qədər azaldılması üçün dövlətin maliyyə-kredit siyasətində müvafiq dəyişikliklərin edilməsi, bankların isə tətbiq edilən güzəştlərə əməl etmələri məqsədəuyğun olardı.

Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) ölkənin müxtəlif şəhər və rayonlarında

fəaliyyət göstərən KOB inkişaf mərkəzləri şəhər və rayonlarda fəaliyyət göstərən sahibkarlar və biznesə başlamaq istəyən üçün vergi, hesabatlılıq, biznesə başlamaq, biznesin idarə edilməsi, marketinq, biznes planın hazırlanması və s. mövzularında vaxtaşırı təlimlər keçirir. KOBİA vaxtaşırı olaraq müxtəlif qrant layihələri də həyata keçirir [4]. Hesab edirik ki, fərdi sahibkarlıq strukturlarının da KOBİA-nın sahibkarlığın inkişafına dəstək layihələri ilə əhatə edilməsi məqsədəuyğun olardı.

Məlumdur ki, Azərbaycan Respublikası Sahibkarlığa Kömək Milli Fondu trəfindən kiçik və orta sahibkarlıq strukturlarına güzəştli şərtlərlə, aşağı faizlərlə kreditlər verilir [1]. Fikrimizcə, bu fond hsabına fərdi sahibkarlara daha aşağı faizlərlə (məsələn,2-3% çivarında) kreditlərin verilməsi məqsədəuyğun olardı.

### *Nəticə*

Fərdi sahibkarlıq fəaliyyəti ölkənin, xüsusilə onun regionlarının, sosial-iqtisadi inkişafında əhəmiyyətli rol oynayır və bu rol getdikcə artmaqdadır. Yuxarıda qeyd edildiyi kimi, Azərbaycan iqtisadiyyatının müxtəlif sahələrində məşğul olan fərdi sahibkarların sayı son 10 il ərzində artmağa doğru meyl etsə də, onların faktiki sayları çox deyildir. Ancaq araşdırmalar göstərir ki, fərdi sahibkarlıq fəaliyyətinin genişlənməsi və inkişafı üçün ölkəmizdə kifayət qədər potensial imkanlar vardır. Hesab edirik ki, bu məqalədə irəli sürülən təklif və tövsiyələrin həyata keçirilməsi Azərbaycanda fərdi sahibkarlıq fəaliyyətinin geniş yayılmasına və inkişafına imkan və zəmin yarada bilər.

## ƏDƏBİYYAT

1 Azərbaycan Respublikası Sahibkarlığın İnkişafı Fondunun illik hesabatı. file:///C:/Users/User/Downloads/Illik_hesabat_2023.pdf
2 Azərbaycanın statistik göstəriciləri.Statistik məcmuə.ARDSK, Bakı, 2024, 695 səh.
3 Azərbaycanın statistik göstəriciləri.Statistik məcmuə.ARDSK, Bakı, 2025, 695 səh.
4 KOBİA-nın 2019 - 2023-cü illər üzrə hesabatları. https://smb. gov. az/az/nav/
5 Деревянко Н.А . Особенности правового статуса индивидуального предпринимателя. https://epomen.ru/issues/2022/68/18.pdf
6 Усачева Юлия. Особенности правового статуса индивидуального предпринимателя. https://www.calltouch.ru/blog/ip-fizlico-ili-yurlico/
7 What is individual entrepreneurship. https://egov.kz/cms/en/ articles/individual_ entrepreneurship
8 Entrepreneur CharacteristicsTo Develop for Success https://www.indeed.com/career-advice/finding-a-job/entrepreneur-characteristics.

***РамильТейюб оглы Алиев***
***Министерство Науки и Образования Азербайджанской Республики, ведущий научный сотрудник Института Экономики, доцент***

***Севда Фаиг кызы Махмудова***
***Министерство Науки и Образования Азербайджанской Республики, старший научный сотрудник Института Экономики***

**Современное состояние и направления улучшения индивидуального предпринимательства в Азербайджане**

### *Резюме*

**Цель исследования** – оценка текущего состояния индивидуального предпринимательства в Азербайджане и подготовка предложений по его совершенствованию.

**Методология исследования** – системный подход, экспертный метод, методы комплексного анализа.

**Результаты исследования** – исследовано современное состояние развития индивидуального предпринимательства в Азербайджане, даны соответствующие предложения и рекомендации по его совершенствованию.

**Практическая значимость исследования** – результаты исследования, а также выдвинутые предложения и рекомендации могут быть использованы при разработке соответствующих мер по развитию индивидуального предпринимательства и позволят более эффективно использовать потенциал индивидуального предпринимательства.

**Оригинальность и научная новизна исследования** – обоснована необходимость развития индивидуального предпринимательства в современных условиях, указаны конкретные пути его совершенствованию.

***Ключевые слова: индивидуальное предпринимательство, тенденции развития, современная состояния, совершенствование, развитие.***

***Ramil Teyyub Aliyev***
***Ministry of Science and Education of the Azerbaijan Republic, leading researcher at the Institute of Economics, associat professor***

***Sevda Faig Makhmudova***
***Ministry of Science and Education of the Azerbaijan Republic, senior researcher at the Institute of Economics***

## The current status and directions for improvement of individual entrepreneurship in Azerbaijan

***Abstract***

**The purpose of the study** -is to assess the current state of individual entrepreneurship in Azerbaijan and develop proposals for its improvement**.**

**Research methodology –** a systems approach, expert method, and comprehensive analysis methods.

**Research results –** the current state of development of individual entrepreneurship in Azerbaijan was examined, and corresponding proposals and recommendations for its improvement were provided**.**

**Practical significance of the study –** the results of the study, as well as the proposed proposals and recommendations, can be used in developing appropriate measures for the development of individual entrepreneurship and will enable more effective use of the potential of individual entrepreneurship.

**Originality and scientific novelty of the study –** the need for the development of individual entrepreneurship in modern conditions is substantiated, and specific ways for its improvement are indicated.

***Key words: individual entrepreneurship, development trends, current state, improvement, development.***